**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 038/532

**Bakı şəhəri** „16" iyun 2026-cı il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 05-15.06.2026-cı il tarixli rəsmi məlumatlarına əsasən, Rumıniya Respublikasının Mureş (Mureș) kantonunda **xırdabuynuzlu heyvanların taun** (XBT) xəstəliyi, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Uelsin hissəsinin Keredıqion (Ceredigion) kantonunda **blutanq** xəstəliyi, İspaniya Krallığının Kastiliya və Leon (Castilla y León) muxtar icmasında **Nyukasl** xəstəliyi, Butan Krallığının Samdrupconqxar (Samdrupjongkhar) rayonunda isə **yüksək patogen quş qripi** (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu heyvan xəstəliklərdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin Rumıniya Respublikasının Mureş kantonunda XBT xəstəliyinin, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Uelsin hissəsinin Keredıqion kantonunda blutanq xəstəliyinin, İspaniya Krallığının Kastiliya və Leon muxtar icmasında Nyukasl xəstəliyinin, Butan Krallığının Samdrupconqxar rayonunda YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** Rumıniya Respublikasının Mureş kantonunda, zonalaşma prinsipi nəzərə alınmaqla, XBT xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədən sözügedən xəstəliyə həssas diri ev və vəhşi xırdabuynuzlu heyvanların, onlara aid genetik materialların, həmçinin qeyd olunan ev heyvanlarından alınan məhsulların (virusun məhv edilməsini təmin edən termik emala məruz qalan məhsullar istisna olmaqla) idxalına, habelə həmin məsafədən Azərbaycan Respublikasının ərazisindən adıçəkilən heyvanların tranzitinə ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 14.7-ci Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Uelsin hissəsinin Keredıqion kantonunda, zonalaşma prinsipi nəzərə alınmaqla, blutanq xəstəliyi baş vermiş təsərrüfatdan 150 km radiusda olan məsafədən bütün növ diri iri və xırdabuynuzlu heyvanların, dəvələrin, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.3-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**4.** İspaniya Krallığının Kastiliya və Leon muxtar icmasında, zonalaşma prinsipi nəzərə alınmaqla, Nyukasl xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları

ƏSLİ İLƏ DÜZDÜR Abbasov T.K. 16.06.2026

olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (Nyukasl viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.9-cu Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**5.** Butan Krallığının Samdrupconqxar rayonunda, zonalaşma prinsipi nəzərə alınmaqla, YPQQ xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.4-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**6.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci, 3-cü və 4-cü bəndlərində adıçəkilən inzibati ərazi vahidlərinin, 5-ci bəndində isə qeyd olunan ölkənin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**7.** Xəstəliyin aşkarlandığı tarixə kimi, bu qərarın 2-ci, 3-cü, 4-cü və 5-ci bəndlərində qeyd olunan inzibati ərazi vahidlərindən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş adıçəkilən malların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**8.** Bu qərarın 2-ci, 3-cü, 4-cü və 5-ci bəndlərinin icrasının təmin edilməsi üçün, eyni zamanda sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərindən ölkə ərazisinə və yaxud həmin inzibati ərazi vahidlərindən tranzitlə keçib respublika ərazisinə daxil olan, habelə respublika ərazisindən tranzitlə digər ölkələrə gedən nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**9.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**10.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**11.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
16.06.2026